“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 oktyabr 2014-cü il № 80 (1897) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır

***Məlum olduğu kimi, bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.***



İclası giriş nitqi ilə açan dövlətimizin başçısı üçüncü rübün və ilin doqquz ayının sosial-iqtisadi yekunlarını təhlil edərək bildirib ki, ölkəmizin inamlı inkişafı istiqamətində önəmli addımlar atılmışdır. “Ümumiyyətlə, ilin əvvəlindən bu günə qədər Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Artıq doqquz ayın nəticələri onu göstərir ki, həqiqətən bu il də tarixdə uğurlu il kimi qalacaq. Bu da təbiidir, çünki son illər ərzində aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəmizin dinamik inkişafını təmin etmişdir.

Azərbaycanda aparılan islahatların və düşünülmüş iqtisadi siyasətin dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirildiyini vurğulayan ölkə rəhbəri xüsusi bildirib ki, Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə də irəliyə getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Yəni, bir sözlə, biz dünyanın ən rəqabət qabiliyyətli 40 ölkəsinin sırasındayıq. Bu, tarixi nailiyyətdir və bizə əlavə inam verir”.

Azərbaycan Respublikasının Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli probleminə də Nazirlər Kabinetinin iclasında toxunub. Dövlət başçısı bu münasibətlə deyib:

“Əfsuslar olsun ki, bu il də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmamışdır. Bunun başlıca səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv, qeyri-səmimi davranışıdır. Ermənistan çalışır ki, maksimum dərəcədə bu məsələni uzatsın və status-kvo dəyişməz olaraq qalsın. Baxmayaraq ki, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Ancaq əfsuslar olsun ki, bu bəyanatlar havada qalır, Ermənistan buna məhəl qoymur. Bu bəyanatları səsləndirən tərəflər isə ciddi ölçü götürmürlər və belə olan halda məsələ öz həllini tapmır. Biz çalışırıq və çalışacağıq ki, bu məsələ tezliklə öz həllini tapsın. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe beynəlxalq birlik tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Bu münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bunlar məsələnin həlli üçün əsas sənədlərdir. Digər beynəlxalq təşkilatlar da müvafiq qərar və qətnamələr qəbul etmişlər. Yəni, hüquqi cəhətdən bizim mövqeyimiz kifayət qədər möhkəmdir.

İqtisadi cəhətdən, əlbəttə ki, Ermənistanı Azərbaycanla müqayisə etmək mümkün deyil. Azərbaycan zənginləşən, güclənən müstəqil bir dövlətdir. Əlbəttə ki, güclər nisbəti bizim xeyrimizə dəyişir, dəyişəcək. Bizim aramızdakı uçurum daha da dərinləşəcək. Ermənistanın uğurlu inkişafı üçün heç bir amil yoxdur. Çünki ölkə tənəzzülə uğrayıbdır. Nə qədər ki, Ermənistanda kriminal diktatura rejimi hökm sürür, bu ölkə öz müstəqilliyini tamamilə bir o qədər də tez itirəcəkdir. İndi də Ermənistanı müstəqil ölkə adlandırmaq mümkün deyil.

Biz isə inkişaf edirik. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bizim kifayət qədər imkanlarımız var. Ordu quruculuğu Azərbaycanda uğurla gedir və gedəcəkdir. Üçüncü rübdə təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatına da bizim hərbçilərimiz layiqli cavab vermişlər. Onlarla işğalçı məhv edilmişdir. Onlara böyük sarsıdıcı zərbə vurulmuşdur. Sadəcə olaraq onlar çalışırdılar ki, Soçi görüşü ərəfəsində özləri üçün daha da əlverişli mövqe əldə etsinlər. Ancaq onların səyləri iflasa uğradı və nəticə etibarilə erməni əsgərləri məhv edildi. Bunun da əsas günahkarı Ermənistanın kriminal rejimidir.

Bir də demək istəyirəm ki, bizim prinsipial mövqeyimizə heç bir qüvvə təsir edə bilməz. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Siyasi, diplomatik, iqtisadi, hərbi amillər burada əsas rol oynayır. Mən dəfələrlə demişəm, bir də demək istəyirəm ki, demoqrafik amil də az rol oynamır. Ermənistanın rəsmi statistikasına görə, təkcə bu ilin doqquz ayında ölkə əhalisi 80 min nəfər azalıbdır. Yəni, 80 min erməni vətəndaşı ölkədən gedib və qayıtmayıb. Bu meyil ilin sonuna qədər davam edəcək və beləliklə, Ermənistanda 100 mindən artıq əhali azalacaqdır. Azərbaycan əhalisi isə artır və artacaq. Bu da öz növbəsində gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacaq. Ermənistan vətəndaşlarının kütləvi şəkildə ölkədən getməsinin bir neçə səbəbi var: korrupsiya, diktatura rejimi, biznes imkanlarının məhdud olması, işsizlik, yoxsulluq. Əlbəttə ki, təmas xəttində son hadisələrdən sonra bu kütləvi köç daha da geniş vüsət almışdır. Əgər Ermənistan bir daha təxribata əl atsa, yenə də layiqli cavab alacaq və görəcək ki, bu təxribat yeni köç dalğasına təkan verəcəkdir. Bir sözlə, bir də demək istəyirəm ki, Azərbaycan ictimaiyyəti də bilsin, biz öz prinsipial mövqeyimizdən geri çəkilməyəcəyik. Çalışırıq, çalışacağıq ki, məsələ öz həllini tapsın və tapacaqdır”.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Dövlət Müstəqilliyi Günü Pakistan mətbuatının diqqətində

***Pakistanın "Centreline" jurnalı və DNA informasiya agentliyi "Azərbaycanın müstəqilliyinin 23-cü ildönümü" adlı məqalə yayıb.***

Məqalədə 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etdiyi bildirilir, tarixə nəzər salınır. Qeyd edilir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dünya birliyinin tam hüquqlu üzvünə çevrildi. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri oldu.

Azərbaycanın inkişafının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğu qeyd edilən yazıda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu layihələr barədə də məlumat verilir. Qeyd edilir ki, Azərbaycanda aparılan islahatlar həyatın bütün sahələrini - kənd təsərrüfatı, sənaye, idman, turizm və digər sahələri əhatə edir.

Müəllif Azərbaycanın Şərq ilə Qərbin qovuşuğunda yerləşdiyini, bu ölkənin Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynadığını vurğulayır.

Azərbaycanın beynəlxalq əlaqələrindən də bəhs edilən yazıda ölkəmizin bir sıra beynəlxalq və regional təşkilatların fəal üzvü olduğu, 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyi diqqətə çatdırılıb.

Məqalədə, həmçinin Pakistanla Azərbaycan arasında dostluq münasibətlərinin, siyasi, iqtisadi, maliyyə, hərbi, ticarət, mədəniyyət və digər sahələrdə əlaqələrin mövcud olduğu, hər iki ölkənin qlobal və regional məsələlərdə yaxından əməkdaşlıq etdiyi, bir-birini dəstəklədiyi vurğulanıb.

**AzərTAc**

## Dmitri Savelyev:

# Ermənistan anlamalıdır ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli həm də onun özünün xilası deməkdir

***Rusiya İctimai Palatasında Azərbaycanın Dövlət Müstəqilliyi Günü ilə bağlı keçirilən "dəyirmi masa"da ölkələrimiz arasında əlaqələr, Azərbaycanın əldə etdiyi nailiyyətlər, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılıb.***

Tədbirdə çıxış edən Rusiya parlamentinin hər iki palatasının üzvləri, politoloqlar və ekspertlər Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində əldə edilən nailiyyətlərdən danışıblar. Onlar Azərbaycan Prezidentinin həm ölkə daxilində, həm də beynəlxalq miqyasda yüksək reytinqinin tam əsaslı olduğunu bildiriblər.

İctimai Palatanın üzvü Sergey Markov Rusiyaya dost və qardaş ölkə olan Azərbaycanın nadir inkişaf modelinin rəsmi Moskva üçün də xüsusi maraq kəsb etdiyini söyləyib. O bildirib ki, Azərbaycanda ruslara, rus dilinə və mədəniyyətinə olan yüksək səviyyəli münasibət, son zamanlar ictimai və siyasi sahələrdə intensivləşən əlaqələr və bir sıra digər amillər Azərbaycanı Rusiya üçün tək strateji tərəfdaşa deyil, etibarlı müttəfiqə çevirir.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev Dağlıq Qarabağ münaqişəsindən söz açaraq deyib ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməlidir. Rəsmi Yerevan anlamalıdır ki, münaqişənin ədalətli həlli həm də Ermənistanın xilası deməkdir.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Dağlıq Qarabağ münaqişəsindən danışaraq bildirib ki, haqq-ədalət öz yerini tapmalıdır. Səfir deyib: "Mən özüm Qarabağlıyam, Şuşalıyam. Orada mənim atamın məzarı var. 14 yaşlı oğlumu bir dəfə də olsun babasının məzarına apara bilməmişəm. Sizcə, bu normaldırmı? Bu, yüz minlərlə insanların böyük faciəsidir. Buna son qoyulmalı, azərbaycanlılar doğma yurd-yuvalarına qayıtmalıdırlar. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edir. Biz nə vaxta kimi Ermənistanın bu tələblərə məhəl qoymamasını sakit şəkildə müşahidə edəcəyik? Müharibə, əlbəttə ki, böyük faciədir. Lakin müharibə məcburiyyət olanda qaçılmaz olur. Ona görə də həmsədr ölkələr, xüsusən də Rusiya regionda yeni müharibə istəmirlərsə, Ermənistana daha fəal şəkildə təzyiq göstərməlidirlər ki, Azərbaycan bu məcburiyyət qarşısında qalmasın. Azərbaycan müharibə tərəfdarı olmadığını uzun illərdir sülh danışıqları aparmaqla sübut edib. Biz qan tökülməsini istəmirik, biz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində ədalətli həllini istəyirik. Bu, bizim ən böyük güzəştimizdir. Heç bir prezident və heç bir xalq özünün bir qarış torpağını belə güzəştə getməz. Bu, mümkünsüzdür. Bunu Azərbaycandan da gözləməyin. Biz Rusiyanın vasitəçilik rolunu və potensialını yüksək dəyərləndiririk, bu səbəbdən də sülhün bərqərar olması naminə Rusiyadan da vasitəçi kimi konkret addımlar atmasını gözləyirik".

**AzərTAc**

# Bundestaqın deputatları Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniya hökumətinə sorğu göndəriblər

Almaniya Bundestaqındakı Solçular fraksiyasının deputatları Katrin Kunert, Volfgang Gerke, Annette Groth, Heike Hansel, İnge Höger, Andrej Hunko, Mixael Leutert və Stefan Liebich AFR Hökumətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sorğu göndəriblər.

Sorğuda bu fraksiyanın mövqeyi olaraq BMT Təhlükəsizlik Şurasının, BMT Baş Assambleyasının, Avropa Şurası və digər beynəlxalq təşkilat və institutların qərar və qətnamələrinə əsasən, Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğu qeyd olunur, azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağa və işğal olmuş digər ərazilərə geri qayıtmaq hüququ tanınır.

Solçular, ATƏT-in Minsk qrupunun sözügedən münaqişənin həlli ilə bağlı göstərdiyi səylərə AFR hökumətinin münaqişənin həllinə indiyə qədər verdiyi töhfə və bundan sonra göstərə biləcəyi köməklik, və s. məsələlərə aydınlıq gətirməsini istəyiblər.

Sənəddə, həmçinin Rusiyanın son zamanlar vasitəçilik səylərini artırmasına, eləcə də cari ilin avqust ayında təmas xəttində atəşkəsin intensiv şəkildə pozulmasının danışıqlar prosesinə təsiri barədə AFR hökumətinin mövqeyi soruşulur.

**AzərTAc**

# Türkiyə-Azərbaycan Dərnəyi ölkəmizin Dövlət Müstəqilliyi Günü münasibətilə müraciət yayıb

***İstanbuldakı Türkiyə-Azərbaycan Dərnəyi (İSTAD) Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 23-cü ildönümü münasibətilə dünya ictimaiyyətinə müraciət edib.***

Müraciətdə 1918-ci il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi şərəfli yol və bu hökumətin süqutunun səbəbləri, XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası prosesində Azərbaycan xalqının qarşılaşdığı çətinliklər, milli-azadlıq mübarizəsi, Vətənimizin bütövlüyü uğrunda şəhidlərimizin qəhrəmanlığı, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı məsələlərindən bəhs edilir.

İSTAD-ın sədri Səfər Qaraqoyunlunun imzası ilə yayılmış, müraciətdə "Azərbaycan Qafqazın parlayan günəşidir. Ölkədəki hərtərəfli inkişaf, əzəmətli nailiyyətlər dünyanın hər yerindən heyranlıqla seyr olunur" kimi, fikirlər yer alıb.

Sənəddə, həmçinin bildirilir ki, Azərbaycan xalqı heç zaman Xocalı soyqırımının acısını unutmayacaq, Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcək, tezliklə üçrəngli bayrağımız Şuşada dalğalanacaq.

**AzərTAc**

*Ön xətdən reportaj*

# Səngər cəsurların məkanıdır

***Əsas bölmələri düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə avqustun qızmar vaxtında getmişdim. Günəşin hərarətindən sanki hər yan od tutub yanırdı. Ötən illərdə rast gəlinməyən quraqlıq da hərbçilərimizə xidməti vəzifələrini yerinə yetirməkdə əlavə çətinliklər yaradırdı. Buna baxmayaraq, əsgərlərin sosial-məişət qayğılarına ciddi diqqət yetirilir. Bu cür tələbkarlığın nəticəsidir ki, ön xətdəki bölmələrin şəxsi heyəti arasında heç bir xəstələnmə faktı qeydə alınmayıb.***



Ənənəvi olaraq hərbi hissədə bizi növbətçi zabit qarşılayır və gəlişimizin məqsədi barədə komandirə məruzə edir. Zabit Xalid Məmmədovla qısa söhbətimizdə əsas məqsədimizin ön xəttə getmək və Vətənimizi qoruyan şəxsi heyətlə görüşmək olduğunu bildirirəm. Dərhal qərargahda zabitlərə lazımi tapşırıq verildikdən sonra ön xəttə yola düşürük.

Haramı düzünə gəlişim birinci, ikinci dəfə deyil, bəlkə də yüzüncü dəfədir. Qarabağ müharibəsi başlayan vaxtdan bu böyük düzənlik döyüşçülərimizin məskəninə çevrilib. Əslində suvarma imkanları olarsa, bu bölgə mühüm taxılçılıq bazası olardı. Amma nə etməli, amansız müharibə təkcə insan itkiləri ilə müşayiət olunmur, ölkənin iqtisadi tempini də pozur, cəmiyyətin bütün sahələrində ağır fəsadlar törədir.

Neçə illərdir ki, Haramı düzü şırım-şırım səngərlərə bölünüb, ordumuzun şəxsi heyəti torpaqlarımızın hərbi təcavüzə məruz qalmış bu hissəsində də gecə-gündüz döyüş növbəsindədir. Hərbi hissənin yaranma tarixi qanlı-qadalı müharibə dövrünə təsadüf edib. Yüzlərlə hərbçi döyüşlərdə fədakarlıq göstərərək şəhid olub. İndi onların döyüş ənənəsini layiqincə yaşadan hərbi kollektiv qarşıda dayanan xidməti vəzifələrin öhdəsindən bacarıqla gəlir.

Ön xətdə bizi bölük komandiri baş leytenant Naib Daşdəmirov qarşılayır. Düşmənlə təmas xəttində nisbi sakitliyin davam etdiyini bildirən zabitlə səngərlərə - əsgərlərimizin görüşünə gedirik. Həmişə cəbhə xəttində xidmət edən əsgərlərimizi düşünəndə, böyük Azərbaycan şairi Məmməd Arazın bir dəfə Murovdağ döyüşçüləri ilə görüşündə dediyi "Burada bir gün belə yaşamaq qəhrəmanlıqdır" sözlərini xatırlayıram. Əslində məğrur Azərbaycan əsgəri ən çətin bölgələrimizdə də Vətənə övladlıq borcunu şərəflə ödəyir, qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlir.

Yol uzunu söhbətimiz ancaq əsgərlər barəsində, onların mövcud şəraiti, qayğıları haqqındadır. Bölük komandiri bildirir ki, bu gün ön xətdə xidmət edən şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir.

- Əsgərlərin gündəlik məişət şəraitinə, keyfiyyətli qidalanmasına ciddi önəm verilir, - deyir zabit. - Buraya gələn valideynlər övladlarının xidmət şəraitindən razılıq edirlər. Hər bir əsgər vaxtlı-vaxtında məzuniyyətə göndərilir, bundan əlavə kiminsə ailə problemi yaranırsa, diqqətimizi, köməyimizi əsirgəmirik.

Bölük komandirinə görə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Hər kəs Vətənimizin müdafiəsində iştirak etməyin mənəvi məsuliyyətini aydın dərk edir və bu vəzifəni yerinə yetirməsindən qürur duyur.

Azərbaycan Ordusunun hazırkı mərhələsində əsgərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına əvvəlki dövrlə müqayisədə daha geniş diqqət yetirilir. Bu gün əsgərlər milli yeməklərlə təmin edilir, bu məqsədlə Müdafiə Nazirliyinin rəhbərliyi məqsədli tədbirlər həyata keçirir. Artıq qeyri-stasionar şəraitdə belə şəxsi heyəti milli yemək növləri ilə təmin etmək mümkündür.

Yaradılan yüksək şəraitə görə razılığı səngərdə döyüş növbətçiliyi keçirən əsgərlərdən də eşidirəm. Bakının Suraxanı rayonundan hərbi xidmətə çağırılmış əsgər Elxan Mirzəyev söhbətimizdə deyir ki, indi əşya-ərzaq təminatı baxımından heç bir çatışmazlıq yoxdur. "Gün ərzində bizə milli yeməklər verilir, çörək və xörəklər əvvəlki vaxtlara nisbətən çox keyfiyyətlidir. Nazirlikdən gələn yüksək rütbəli zabitlər də sonuncu döyüş postuna kimi gəlib çıxır, hər kəslə yaxından maraqlanırlar. Bizə göstərilən diqqət isə hər birimizi nümunəvi xidmət etməyə ruhlandırır".

Bir ilin əsgəri olan bacarıqlı snayper Arzuman Babayevlə söhbətimi davam etdirirəm. Təcrübəli döyüşçü komandanlıq tərəfindən onlara göstərilən diqqət və qayğıdan danışaraq deyir:

- Xidmət etdiyim bölmədə döyüşçülər arasında hərbi biliklərin mənimsənilməsinə görə yarışların keçirilməsi ənənəyə çevrilib. Bu tədbirlərdə əsasən döyüş silahları üzrə atış yarışmasına cəlb olunuruq. Kim qalib gəlirsə, ona mükafat verilir. Biz belə yarışlarda həvəslə iştirak edirik və gündən-günə səriştəmizi artırırıq.

Tabor komandiri də söhbətimizdə əsgərlərin döyüş vərdişlərini artırmaq üçün həvəsləndirici tədbirlərin keçirildiyini bildirir:

- Ön xətdə xidmət edən əsgərin döyüş peşəkarlığını artırmaq əsas vəzifələrimizdən biridir. Çalışırıq ki, torpaqlarımızın müdafiəsində dayanan gənclər döyüşçü sənətinin sirlərini dərindən mənimsəyə bilsinlər.

Zabitə görə, döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə də önəm verilir. Bu məqsədlə taborda musiqi qabiliyyətinə malik olan bir neçə əsgərdən ibarət özfəaliyyət qrupu yaradılıb. Bayramlarda və istirahət günlərində əsgərlər bu qrupun köməyi ilə mənalı istirahət edirlər.

Ön xətdə xidmət edən əsgərlərlə tanış olanda, söhbət edəndə, onların mərdliyini, qorxmazlığını həmişə hiss etmişəm. Bu dəfə də yəqin etdim ki, səngər mühiti, doğrudan da, cəsurların ünvanıdır.



**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**



***Avqust ayının ilk günlərində cəbhə bölgəsində düşmənin yaratdığı gərginlik igid döyüşçülərimiz tərəfindən layiqincə cavablandırıldı. Ermənistan bir daha ordumuzun gücü və qüdrəti qarşısında aciz qalaraq beynəlxalq aləmə üz tutdu. Əvvəllər olduğu kimi, ermənilər yenə yazıq, məzlum xalq olduqlarını dünyaya car çəkdilər. Ancaq çox əbəs yerə. Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan Azərbaycanın 20 faiz ərazisinin Ermənistan silahlı dəstələri tərəfindən işğal olunması artıq dünyaya məlumdur. Söz yox ki, ermənilər bu işğalı öz havadarlarının dəstəyi sayəsində həyata keçirib. Azərbaycan dövləti və xalqı bu işğalla heç zaman barışmayacaq. Dövlətimizin başçısı cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün mümkün olan bütün imkanlardan istifadə edir. Ümid edirik ki, ölkə başçısının yürütdüyü məqsədyönlü siyasət öz müsbət nəticəsini verəcəkdir. Bu gün cəbhədə atəşkəs əldə olunsa da, yenə düşmən tərəfindən mövqelərimiz atəşə tutulur. Yalnız cavab atəşindən sonra erməni işğalçıları susur.***

Düşmənlə təmas xəttində yerləşən hərbi hissənin qərargahındayam. Səhərin alatoranında əsgərlər günün nizam qaydalarına uyğun tapşırıqları yerinə yetirirlər. Nəzarət-buraxılış məntəqəsində özümü təqdim etdikdən sonra hissə növbətçisi birləşmə komandiri ilə görüşümü təmin etdi. Hələ neçə illər öncə cəbhənin müxtəlif istiqamətlərində yaxşı tanıdığım peşəkar hərbçi, yüksək idarəçilik qabiliyyətinə malik zabit Etibar Əhmədovla yenidən görüşməyim mənə xoş təsir bağışladı. Məlum avqust hadisələrindən sonra ön xətdəki vəziyyətlə bağlı söhbətimizə başladıq. Cəbhəboyu postlardakı vəziyyətdən söz açan zabit bildirdi ki, döyüş növbəsində əsgərlər bir an belə düşməni nəzarətsiz qoymurlar. "Hərbi kollektivimiz bacarıqlı zabit, gizir, çavuş və əsgərlərdən ibarətdir. Belə döyüşçülər olan yerdə düşmən bir addım belə irəliyə ayaq ata bilməz. Mənfur ermənilər buna dəfələrlə cəhd edib. Lakin igid oğullarımız vaxtında düşmənin bəd niyyətinin qarşısını alıblar".

- Əslində gecələr döyüş postlarında xidmət aparmaq daha artıq məsuliyyət tələb edir, - deyə zabit söhbətinə davam edir. - Məhdud görmə şəraitində qarşımızdakı düşməni nəzarətdə saxlamaq bir qədər çətin olur. Buna baxmayaraq igid əsgərlərimiz müşahidəni daha da artırırlar. Əlbəttə, buna nail olmaq üçün hazırlıq dövründə bacarıqlı komandirlərin vasitəsilə əsgərlərə yüksək səviyyədə hərbi biliklər və vərdişlər aşılayırıq.

Sonra kapitan Seymur Abıyevlə ön xəttə yola düşürəm. Cəbhə xəttinə yaxın sahələrdə əkin-biçin işləri aparan kəndlilərin yanından ötüb keçirik. Yol yoldaşım deyir ki, əvvəllər kənd camaatı bu sahələrdən istifadə etməkdə əziyyət çəkirdi. Tez-tez tarlanı düşmən gülləyə tuturdu. İndi isə ordumuz tərəfindən qabaqlayıcı tədbirlər həyata keçirilir və bir çox əkin sahələrindən vətəndaşlar tam təhlükəsiz istifadə edirlər.

Bir qədər gedəndən sonra səngərə daxil oluruq. Dərinliyi adama boy verən bu istehkam qurğuları neçə illərdir döyüşçülərimizin məskəninə çevrilib. Səngərdə irəlilədikcə düşünürsən ki, bu istehkam qurğularının ərsəyə gətirilməsində az əsgər əməyi sərf olunmayıb. Neçə illərdir lənətə gəlmiş ermənilərlə üz-üzə dayanan Vətən oğulları bu mövqelərdə torpaqlarımızı qoruyurlar. Baş leytenant Rauf Atakişiyevin komandiri olduğu bölmənin dayaq məntəqəsi düşmənə lap yaxın məsafədə yerləşir. Elə bir məsafədə ki, düşmənin adi qaydada danışığını da eşitmək olur. Buna görə də döyüş növbətçiliyinin lazımınca aparılması üçün mümkün tədbirlər görülüb. Burada əsgərlərdən hər an ayıq-sayıq olmaq tələb olunur. Bölmənin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasına ciddi önəm veririk.

İlk döyüş postuna çatanda bizi hərbi qaydada qarşılayan və gün ərzində müşahidə ilə bağlı məlumat verən gənc zabit İmran Hacıyev oldu. Qısa tanışlıqdan məlum oldu ki, İmran Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib. Müddətli hərbi xidmətə gələn gündən ordu sıralarında zabit kimi qalıb xidmət etmək qərarına gəlib. Bunun üçün aidiyyəti üzrə komandanlığa müraciət edib. Onun müraciəti müsbət qarşılanıb. Hazırda İmran ön xətdə xidmət edir, üzərinə düşən hər bir tapşırığı canbaşla yerinə yetirir. Onunla bir yerdə səngər həyatı yaşayan müddətdən artıq xidmət edən hərbi qulluqçu əsgər Nüsrət Quliyev də bu il aprel ayından ordu sıralarındadır. O deyir ki, mövqeyimiz düşmənə çox yaxındır. Tez-tez ermənilər postlarımızı atəşə tuturlar. Biz bundan qəti qorxmuruq. Bacarıqlı, cəsur əsgərlərimiz dərhal cavab atəşi açırlar.



Düşmənin bir addımlığında dayanan hər bir döyüşçünün üz-gözündən məğrurluq, yağıya qarşı intiqam hissi duyuram. Bir-bir əli silahlı Vətən müdafiəçiləri ilə görüşüb tanış oluram. Onların hər biri ölkəmizin ayrı-ayrı rayonlarındandır. Yardımlıdan Rövşən Aslanov, Gədəbəydən Ruslan Məmmədov, Sumqayıtdan Fariz Gəncəliyev, Bakıdan Kamran Qulamov və Qazaxdan Turxan İsmayılov əsgəri borcunu şərəflə yerinə yetirən Vətən oğullarıdır. Əsgərlər söhbət zamanı bildirdilər ki, onlar peşəkar komandirlərin sayəsində yüksək hərbi biliklərə və mükəmməl vərdişlərə yiyələniblər. Onlar istədikləri an Ali Baş Komandanın hücum əmrini yerinə yetirməyə hazırdırar.

Bəli, əsgərlərdə olan bu güclü mənəvi ruh onların Vətənə, millətə, Azərbaycana olan sevgi və istəklərinin təzahürüdür. Məhz bu sevgi və inam da böyük qələbəmizi təmin edən əsas şərtlərdir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*



# Komandir örnək olanda...

***Ezamiyyətimiz zamanı cəbhə xəttində uğurlu xidmətini həyata keçirən kiçik çavuş Gülağa İsgəndərovla söhbətə başlayırıq. Hacıqabul rayonundan hərbi xidmətə çağırılan gənc döyüşçü manqa komandiri olduğunu bildirir.***

- Manqa komandiri əsgərlərin sırasından seçilir və müvafiq təlim müddətindən sonra vəzifəyə təyin olunur. Manqa komandiri sülh və müharibə dövründə; tabeliyində olanların təliminə, tərbiyəsinə, hərbi intizamına və mənəvi-psixoloji vəziyyətinə, sıra hazırlığına və zahiri görkəminin səliqəsinə; silahlardan, döyüş texnikasından və digər texnikalardan, ləvazimatlardan, əşya və geyimdən düzgün istifadə olunmasına, ən başlıcası isə manqanın döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə cavabdehdir. O, taqım komandirinə və onun müavininə (komanda çavuşuna) tabedir, manqanın şəxsi heyətinin bilavasitə rəisidir, - deyə kiçik çavuş üzərinə düşən vəzifələr barədə fikirlərini bizimlə bölüşür.

Manqa komandiri kursuna xidmətinə məsuliyyətli, keçirilən dərslər zamanı fəal olduğu üçün seçilib. Hərbi hissədə keçirilən kursu başa vurub. Kurs müddətində bacarıqlı zabitlər tərəfindən ictimai-siyasi hazırlıq, döyüş hazırlığı, idman və sıra hazırlıqları üzrə vərdişlərə yiyələnib. Döyüş hazırlığı planına əsasən, manqa komandirliyinə namizədlərlə toplantı keçirilib. Toplantının sonunda 45 günlük kursun nəticəsi olaraq fəal əsgərlər imtahanı uğurla verərək manqa komandiri vəzifəsinə təyin olunmağa haqq qazandılar.

Manqasında 6 əsgərin olduğunu bildirən gənc döyüşçü ədalətli komandir olduğunu, tabeliyində olan əsgərlərlə nizamnaməyə uyğun davrandığını qeyd etdi.

Manqa komandiri döyüş tapşırığı yerinə yetirilərkən əsgərlərinə komanda verməyi bacarmalıdır. Həmçinin tabeliyində olanların hər birinin ad və soyadını, təvəllüdünü, şəxsi keyfiyyətlərini, hərbi xidmətə qədərki məşğuliyyət növünü, ailə vəziyyətini, döyüş və ictimai-siyasi hazırlığındakı müvəffəqiyyət və çatışmazlıqlarını bilməli, manqada günün nizam qaydalarına, daxili qayda-qanuna, təmizliyə riayət edilməsinə, tabeliyində olanların səliqəliliyinə, geyimin və ayaqqabının sazlığına, ləvazimatın düzgün uyğunlaşdırılmasına, şəxsi gigiyena qaydalarına əməl edilməsinə; hərbi formanı geymə qaydalarına riayət edilməsinə, həmçinin zahiri görkəminin səliqə-sahmanına diqqət yetirməlidir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Oktyabrın 20-dən 21-dək Rukla şəhərində (Litva) Juozas Luksa Quru Qoşunları Təlim Mərkəzi və mərkəzdə təşkil olunan sərrast atıcılıq kursu ilə tanışlıq səfəri, oktyabrın 20-dən 24-dək İstanbul şəhərində (Türkiyə) Türkiyə Hərbi Dəniz Qüvvələrinin fərdi tədris sistemi ilə tanışlıq və təcrübə mübadiləsi; İzmir şəhərində (Türkiyə) əldə hazırlanmış partlayıcı qurğuların istifadə olunduğu yüksək təhlükəli mühitdə taktiki əməliyyatların aparılması kursu; Brüssel şəhərində (Belçika) tərəfdaş ölkələrin qərargah zabitləri üçün NATO ilə tanışlıq kursu; oktyabrın 21-dən noyabrın 13-dək Manama şəhərində (Bəhreyn) "Dəniz minalarına qarşı mübarizə tədbirləri üzrə beynəlxalq təlim-2014" yekun planlaşdırma konfransı; oktyabrın 22-də Ramştayn şəhərində (Almaniya) Hərbi Hava Qüvvələri Komandanlarının konfransı; oktyabrın 22-dən 23-dək isə İstanbul şəhərində (Türkiyə) keçiriləcək Regional təlim-2014 yüksək səviyyəli müşahidəçilər günü keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***21 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 14 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Füzuli və Xocavənd rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# “Müasir Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etmək qüdrətindədir”

## Müsahibimiz millət vəkili, Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini Aydın Mirzəzadədir



*Avqustun əvvəllərində cəbhə xəttində erməni kəşfiyyat-diversiya qruplarının təxribat xarakterli hücumları nəticəsində yaranan gərginlik və bununla əlaqədar müharibə şəraitində olan ölkənin media qurumlarında xalqı çaşqınlıq içərisində saxlayan yalan, şişirdilmiş məlumatların verilməsi informasiya təhlükəsizliyi sistemində təxirəsalınmaz vacib tədbirlərin görülməsini labüd etdi. Avqustun 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə keçirilən müşavirə, Mətbuat Şurasının bu müşavirədən irəli gələn tələb və vəzifələrlə bağlı sentyabrın 5-də Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycanın informasiya təhlükəsizliyi media müstəvisində" adlı konfrans, nəticə etibarilə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin sentyabrın 24-də imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamı ölkənin informasiya təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsi üçün hüquqi bazanın yaranmasına zəmin oldu.*

*Hazırda ölkəmizdə informasiya təhlükəsizliyi və müdafiəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilməkdədir. Bu və ya digər məsələlər barəsində Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini Aydın Mirzəzadənin fikirlərini öyrənmək üçün onunla söhbət apardıq. Həmin söhbəti "Azərbaycan Ordusu" qəzetinin oxucularının diqqətinə çatdırırıq.*



***- Aydın müəllim, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 24 sentyabr 2014-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" imzaladığı sərəncamından irəli gələn tələblərlə bağlı fikirlərinizi öyrənmək istərdik.***

- Əlbəttə, bu sərəncam vaxtında verilmiş, toxunduğu mövzu üzrə bütün mümkün olan tədbirləri özündə birləşdirən və Azərbaycanın təhlükəsizliyini, cəbhə xəttində Silahlı Qüvvələrin mövqeyini möhkəmləndirən tarixi bir sənəd kimi olduqca önəmlidir. Müharibə şəraitində olduğumuza və hər an Ermənistanla hərbi əməliyyatların bərpasının mümkün olduğu bir şəraitdə çox təəssüf ki, ölkənin mətbuat orqanlarında, sosial şəbəkələrdə cəbhə xətti, qoşunların yerdəyişməsi, yeni texnika və silahlarımızla bağlı vaxtaşırı yoxlanılmamış məlumatlar dərc edilir. Bu isə düşmən tərəfə Azərbaycanın müdafiə qabiliyyətinin hansı vəziyyətdə olması ilə bağlı açıq mənbələrdən birbaşa məlumat götürməyə imkan verir. Ötən avqust olaylarında dəfələrlə mən özüm də hərbi mözvuda verilən məlumatların yoxlanılmasının vacibliyini vurğulamışdım. Hətta ciddi hesab edilən mətbu orqanlardan birində ölkənin müdafiə qabiliyyəti ilə bağlı yoxlanılmamış məlumatların verilməsinin əleyhinə çıxmışdım. Ümumən cəmiyyətdə bununla bağlı narahatlıq doğuran məsələlər cənab Prezidentin sərəncamında tamamilə düzgün əksini tapıb. Sərəncamda cəbhəboyu zonada patrul dəstələrinin yaradılması, mətbuat orqanlarının məlumatların verilməsində məsuliyyət daşıması ilə əlaqədar əlavə tədbirlərin görülməsi və eyni zamanda ordunun vəziyyəti ilə bağlı informasiyaların mediada yer almasına da şəraitin təşkilindən söhbət açılır. Artıq ilk gündən hiss edirəm ki, mətbuat ordu ilə bağlı məlumatların yayılmasına məsuliyyətlə yanaşmağa başlayıb. Əslində Müdafiə Nazirliyi də mediaya cəmiyyəti maraqlandıran, ancaq hərbi sirr sayılmayan məlumatların daha geniş həcmdə verilməsinə imkan yaratmalıdır.

***- Sərəncamda qeyd edilir ki, 1994-cü ildə qəbul olunmuş "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyasına və 1998-ci ildə qəbul edilən "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsinə dair təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edilsin. Aydın müəllim, hər iki qanuna hansı dəyişikliklər və əlavələrin edilməsi nəzərdə tutulur?***

- Şübhəsiz ki, sərəncamda nəzərdə tutulan tədbirlərlə bağlı işçi qrupu yaradılır. Çünki təklif Prezidentə təqdim edilməlidir ki, sonra bu təkliflə parlamentə qanunvericilik təşəbbüsü statusunda müraciət edilsin. Növbəti mərhələdə isə parlament onu müzakirəyə çıxartsın. Mən hesab edirəm ki, cənab Prezidentin tapşırığı yüksək səviyyədə həyata keçirilir. Sərəncamda söhbət qanunun dəyişilməsindən deyil, məsuliyyətin artırılmasından gedir. Çünki indiki halda jurnalist verdiyi məlumata görə heç bir məsuliyyət daşımır. Əlbəttə ki, həmin məlumatlar yalnız yoxlanıldıqdan sonra dövlətin təhlükəsizliyinə hər hansı bir problem yaratmadığı halda verilə bilər. Qeyd etməliyəm ki, sərəncamla bağlı aidiyyəti qurumlar öz üzərində məsuliyyət hiss etməli və bu istiqamətdə əlavə tədbirlər görülməlidir. Müharibə şəraitində informasiya təhlükəsizliyinə xidmət edən qanunların sərtləşdirilməsi ilə bağlı dünyanın bütün ölkələrində belə bir təcrübə var: Bir tərəfdən mətbuatın azadlığı təmin edilirsə, digər tərəfdən həmin o azadlığın dövlətin milli maraqlarına ziyan vurmamasına ciddi fikir verilir. Yolverilməz haldır ki, bəzən mətbuatda ordumuzla bağlı, onun müdafiə vəziyyətinə ziyan vuracaq hansısa məlumat gedir. Bəzən də orduda kadr dəyişikliyi ilə bağlı məlumatlar ani surətdə mətbuatın səhifələrində, ilk növbədə virtual mətbuatda özünə yer tapır. Təyin edilən şəxsin tərcümeyi-halı, ailə vəziyyəti, bəzi hallarda ünvanına qədər dəqiqliklə göstərilirsə, bunun özü də təhlükəsizliyə xələl gətirən məqamdır. İnanıram ki, bütün bu məsələlərə təklif edilən dəyişikliklərdə aydınlıq gətiriləcək və mətbuatın özü də maraqlı tərəf kimi çıxış edəcək.

Mətbuat azadlığı ilə yanaşı, mətbuatın məsuliyyəti anlayışı da gündəmdə olmalıdır. Ölkənin müdafiə qabiliyyətinə xələl gətirən və hərbi sirr təşkil edən informasiyaların yayılması qətiyyən yolverilməzdir. Əlbəttə ki, bu mənəvi məsuliyyət məsələsi olmaqla yanaşı, hüquqi məsuliyyət müstəvisində də öz əksini tapacaq. Qanuna edilən əlavələr bu sahədə məhz mətbuatın məsuliyyətini nəzərdə tutur. Çünki burada dövlət sirri və milli mənafe məsələsi əsas istinad yerimizdir. Qanunda mövcud olan hansısa maddələr ağırlaşdırılacaq və daha mükəmməl hüquqi baza yaradılacaq.

***- Bu il avqustun 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə də elə əsas müzakirə obyekti avqustun əvvəllərində erməni kəşfiyyat-diversiya qruplarının Ermənistan-Azərbaycan dövlət sərhəddində və qoşunların təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin mövqeyinə basqınları nəticəsində yaranan gərginlik və bununla əlaqədar ölkədə informasiya təhlükəsizliyi sisteminin pozulması oldu. Uzun müddət təhlükəsizlik və müdafiə məsələləri ilə məşğul olmuş bir millət vəkili olaraq Sizin də bu hadisələrə münasibətinizi bilmək yaxşı olardı.***

- Doğrudan da, qeyd etdiyiniz müşavirədə ölkənin informasiya təhlükəsizliyinin pozulması halları çox ciddi surətdə müzakirə edildi. Akademik Ramiz Mehdiyev ölkə Prezidentinin bu məsələ ilə bağlı mövqeyini ictimaiyyət və mətbuat nümayəndələrinin diqqətinə çatdırdı. Müşavirədə iştirak edənlər birmənalı şəkildə Prezident Administrasiyası rəhbərinin və ümumilikdə dövlətin mövqeyini dəstəklədilər. Hamıya bir daha aydın oldu ki, dövlət özünün təhlükəsizliyini bütün sahələrdə, o cümlədən informasiya təhlükəsizliyi sahəsində də ən yüksək səviyyədə qorumaq əzmindədir.

Əslində məlum avqust hadisələri ilə bağlı ictimaiyyət kifayət qədər məlumatlandırılırdı. Hadisələri düzgün istiqamətləndirən analitik və ekspertlərin şərhlərini öz elektron səhifələrində yerləşdirən mətbuat orqanları da az deyildi. Ancaq həmin vaxtda cəmiyyəti çaşdıran materialları reytinq naminə öz səhifələrində verənlər də tapılırdı. Deməliyəm ki, erməni xüsusi xidmət orqanları Azərbaycanla bağlı məlumatları mütəmadi olaraq toplayır və sistemləşdirir. Ermənilər elektron KİV-dən Azərbaycanın müdafiə qabiliyyətinə, Silahlı Qüvvələrimizə aid olan məlumatları əldə edə bilirlər. Beləliklə də, kimlərsə düşünmədən əslində düşmən dəyirmanına su tökmüş olur. Prezidentin sərəncamında bu tip məsələlərin çox ciddi şəkildə qoyulması nəzərdə tutulmuşdur. Bundan sonra qeyd etdiyim məlumatları yerləşdirmək həvəsində olan şəxs artıq hansı məsuliyyəti daşımasının fərqində olacaq.

***- Hazırkı dövrdə müstəqil Azərbaycanın müdafiə qüdrəti artır, ordumuz müasir tələblər səviyyəsində qurulur. Yəni, etiraf etməliyik ki, son vaxtlar orduda aparılan islahatlar da ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsinə layiqli töhfəsini verir. Bu islahatlarla, görülən işlərlə bağlı bir qədər söhbət açmağınız yerinə düşərdi...***

- Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və inkişafında hərbi sahənin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu siyasəti onun siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ötən 11 il ərzində Azərbaycanın büdcəsi artdıqca hərbi büdcəsinin də həcmi artmaqda davam edir. Prezidentliyinin ilk dövründə cənab İlham Əliyev bildirirdi ki, Azərbaycanın hərbi büdcəsi ümumilikdə Ermənistanın dövlət büdcəsinə bərabər olacaq. 2003-cü ildə, 11 il öncə Azərbaycanın hərbi büdcəsi cəmi 150 milyon dollar idisə, hazırda bu rəqəm 25 dəfə artaraq 4 milyard dollara çatıb. Bu isə Ermənistanın dövlət büdcəsindən 2 dəfə artıqdır. Ordu quruculuğuna dövlətin diqqəti bütün istiqamətləri əhatə edir. Orduda aparılan islahatlar ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsinə zəmin yaradır. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması Ermənistan tərəfindən mümkün olan diversiyaların nəzəri şəkildə qarşısının alınmasını təmin etdi. Yeni silahların tətbiqi, cəbhə xəttinin möhkəmləndirilməsi, ordu ilə bağlı bir sıra yeni islahatların keçirilməsi öz nəticəsini verməkdədir. Mətbuat və ictimaiyyət nümayəndələrinin vaxtaşırı cəbhə xəttinə, ayrı-ayrı hərbi hissələrə səfərləri bu islahatların artıq müsbət nəticə verdiyini göstərir. Orduda əzmkarlıq, döyüş əhval-ruhiyyəsi yüksəkdir. Avqustun əvvəllərində baş verən hadisələrdə bu özünü daha qabarıq göstərdi. Bir neçə gün davam edən lokal döyüşlərdə Ermənistan ordusuna böyük zərbələr endirildi, düşmənin mövqeləri dağıdıldı, hərbi texnikası və onlarla canlı qüvvəsi məhv edildi. Yaxın günlərdə Ermənistanın müdafiə naziri Seyran Ohanyan hərbçilərlə görüşündə, zabitlərin erməni əsgərlərinə qarşı qeyri-hüquqi hərəkətləri və Ermənistan ordusunda vəziyyətin ağır olması barədə bəyanat verib.

Azərbaycan Ordusu bu gün işğal altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın döyüş əmrini yüksək səviyyədə yerinə yetirmək qüdrətindədir. Orduda aparılan islahatlar sırasında bu il Azərbaycan Silahlı Qüvvələrində gedən təlimlərin kəmiyyət və keyfiyyətinin artımını da qeyd etmək yerinə düşərdi. 26 İyun Silahlı Qüvvələr Günündə keçirilən irimiqyaslı təlimlərdə Prezident, Ali Baş Komandan cənab İlham Əliyev şəxsən iştirak etmişdi. Azərbaycanın hərb tarixində ilk dəfə olaraq, orduda sentyabr ayında xeyli sayda canlı qüvvə - 40 minə qədər əsgər və zabit, çox sayda hərbi texnika cəlb edilməklə uzunmüddətli təlimlər keçirildi. Bu təlimlərə birinci dəfə olaraq Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri öz texnika və canlı qüvvəsi ilə qoşuldular. İki qardaş ölkənin Silahlı Qüvvələri fəaliyyətlərini koordinasiya edərək mümkün müsbət nəticəni ala bildilər. Bütün bunlar hamısı, əlbəttə ki, Azərbaycan Ordusunun peşəkarlığının artmasına, hərbi qulluqçularımızın texnika və silaha daha yaxşı yiyələnməsinə imkan yaratdı. Həmçinin, ilk dəfə olaraq Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan yüzlərlə hərbi qulluqçusu da səfərbər olunaraq təlimlərə cəlb edildi. Bu təcrübə ordunun lazım olan anda sayını artırmağa, hər bir insanın müsəlləh əsgər kimi qulluq etməsinə imkan verir. Hesab edirəm ki, bu hələ başlanğıcdır. Gələcəkdə ordunun hazırlığı, peşəkarlığı ilə bağlı yeni metod və formalardan istifadə ediləcəkdir.

***- Gəlin söhbətimizi ənənəvi bir sualla yekunlaşdıraq: Azərbaycan əsgərinə sözünüz, arzunuz...***

- Azərbaycan əsgərinə Vətənə ləyaqətlə qulluq etdiyinə, gecə-gündüz torpaqlarımızı qoruduğuna, Vətənə xidmətin ən yüksək və ən ali nümunəsini göstərdiyinə görə bir vətəndaş kimi öz təşəkkürümü bildirirəm. Azərbaycan əsgəri öz vəzifəsinə yüksək məsuliyyətlə yanaşan gəncliyimizdir, Azərbaycan əsgəri öz Vətənini sevən bir nəsildir. Fərəhlidir ki, əsgər gənclərimiz hərbi qulluqdan sonra ya müddətdən artıq, ya gizir kimi, bəzənsə ali təhsillilər zabit kimi orduda qalıb xidmət edirlər. Biz onlarla fəxr edir, onlara cansağlığı və hərbi xidmətdə yeni-yeni uğurlar arzulayırıq. Onlar bilməlidirlər ki, bu gün Ali Baş Komandan ordumuzun güclənməsi üçün dövlətin bütün imkanlarını məhz bu istiqamətə yönəldir. Hesab etməliyik ki, Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, eləcə də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə xəttinə müntəzəm səfərləri, Vətənin keşiyində dayanan əsgərlərlə görüşləri şəxsi heyətin döyüş ruhunu daha da yüksəldir, torpaqlarımızın düşməndən azad olunacağı günü - Qələbə gününü yaxınlaşdırır.

***- Aydın müəllim, maraqlı söhbətinizə görə çox sağ olun.***



**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İŞİD Suriyada döyüş təyyarələrini ələ keçirib



İŞİD yaraqlıları Hələb şəhəri yaxınlığındakı hərbi bazada Suriya Hərbi Hava Qüvvələrinə məxsus təyyarələri ələ keçirərək təlim uçuşlarına başlayıblar. Terrorçulara Səddam Hüseynin keçmiş tərəfdaşlarının təlim keçdiyi bildirilir.

AzərTAc "Euronews" telekanalına istinadla xəbər verir ki, İŞİD ilə döyüşlər artıq İraqın Ənbar əyalətində və paytaxt Bağdadın yaxınlığında gedir. Kobanidə isə İŞİD yaraqlılarının hücumlarını dəf etməyə nail olan "peşmərgə" qüvvələri hər küçə uğrunda ağır döyüşlər aparırlar. Gün ərzində ABŞ döyüş təyyarələri İŞİD-ə məxsus mövqelərin bir hissəsini, artilleriya qurğusunu məhv edib, həmçinin qruplaşmanın nəzarətində olan 16 binanı dağıdıb.

## Türkiyədə yeni istehsal olunan hərbi helikopterlər sınaqdan keçirilib



Türkiyə Silahlı Qüvvələri "T-129" markalı yeni döyüş helikopterlərini sınaqdan keçirib.

"Anadolu" agentliyinin məlumatına görə, saatda 274 kilometr məsafə qət edən yeni helikopter havada 3 saat qala bilir.

Göyərtəsində yüzdən çox müxtəlif ölçülü raket və 500 ədəd top mərmisi daşıyan, güclü mühərriklə təchiz olunmuş "T-129" hədəfləri dəqiq vurmaq imkanındadır.

## Rusiya və Ukrayna prezidentlərinin Milanda gərgin danışıqları



Milanda 10-cu Asiya-Avropa Sammiti çərçivəsində Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Peter Poroşenko arasında görüş olub.

BBC-nin rus xidməti xəbər verir ki, prezidentlərin danışıqları mürəkkəb, gərgin, amma pozitiv keçib. Ukrayna Prezidenti görüşün yekunları haqqında danışarkən deyib ki, tərəflər ölkənin cənub-şərqindəki böhranın nizamlanması haqqında Minsk memorandumunun bütün maddələrinin yerinə yetirilməsinin vacibliyinə əminliklərini bildiriblər.

Diskussiya dördtərəfli formatda keçib. Peter Poroşenko və Vladimir Putinlə yanaşı, danışıqlarda AFR kansleri Angela Merkel, Fransa prezidenti Fransua Olland da iştirak ediblər.

## İranın Pakistanla sərhəd bölgəsində növbəti silahlı insident baş verib



Oktyabrın 16-da İranın Sistan və Bəluçistan əyalətlərində Pakistanla sərhəddə ayrı-ayrı vaxtlarda iki silahlı insident baş verib.

"Fars" agentliyinin məlumatına görə, bunu İranın Sistan və Bəluçistan əyalətinin sərhəd polisinin komandiri Rəhambəxş Həbibi deyib. R.Həbibi bildirib ki, qarşıdurma zamanı 2 sərhəd polisi və silahlı qruplaşmanın 2 üzvü həlak olub. Silahlı qruplaşmanın digər üzvləri Pakistan ərazisinə qaçıb. Onlardan külli miqdarda silah-sursat müsadirə olunub.

Xatırladaq ki, oktyabrın əvvəlində də Sistan və Bəluçistan əyalətində silahlı qruplaşmalar polisə qarşı iki dəfə hücum təşkil etmişdilər. Hücumlar zamanı 4 polis öldürülmüş, 5 polis isə yaralanmışdı.

## Nadir təbiət hadisəsi: Marsın yaxınlığından quyruqlu ulduz keçəcək




NASA-dan verilən məlumata görə, quyruqlu ulduzun "Qırmızı planet"ın 140 min kilometr yaxınlığından, saatda 203 min kilometrə yaxın sürətlə keçəcəyi bildirilir.

TRT-Haber xəbər verir ki, milyon ildə bir görünən bu təbiət hadisəsi hazırda Mars orbitində olan kosmik aparatlar vasitəsi ilə izlənəcək. NASA-nın uçuşu təxminən on ay sürən və 711 milyon kilometr məsafə qət edən "MAVEN" (Mars Atmosphere and Volatile Evolution) robotlu kosmik aparatı bir neçə gün əvvəl Günəşdən qopan və kosmosda dolaşan parçaların "Qırmızı planet"də yaratdığı fırtınaların şəkillərini çəkmişdi.

Qeyd edək ki, Marsın orbitində NASA ilə yanaşı, Avropa, Rusiya və Hindistanın da kosmik aparatları yerləşir.

## Ebola virusunu dekabradək nəzarət altına almaq mümkün olacaqmı?



Ebola virusunun bütün dünyaya yayılma təhlükəsi hər keçən gün daha real görünür. Virusun tüğyan etdiyi Qərbi Afrika ölkələrində yoluxanların sayı durmadan artır.

“Euronews” telekanalı xəbər verir ki, mütəxəssislərin fikrincə, Liberiya, Qvineya və Serra-Leonedə xəstəliyə yoluxanların real sayı rəsmi məlumatlarda göstərilənlərdən 1,5-2 dəfə artıqdır. Lakin rəsmi göstəricilər də təsəlliverici deyil: Ebola artıq 4,5 min nəfərin ölümünə səbəb olub.

Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının iclasında aparılan müzakirələr zamanı ölümcül virusun yayılmasını dekabrın 1-dək nəzarət altına almaq barədə qərar qəbul olunub. Bu məqsədlə bir sıra təxirəsalınmaz tədbirlərin görülməsi təklif olunub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Bayram tədbiri

***Naxçıvan Qarnizonunun Zabitlər Evində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 23-cü ildönümü münasibətilə tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra Əlahiddə Ümumqoşun Ordusunun zabiti polkovnik-leytenant Mirqiyas Rüstəmov çıxışında Azərbaycan xalqının 23 il əvvəl yaranmış gərgin tarixi vəziyyətdə öz müqəddəratını həll edərək dövlət müstəqilliyini bərpa etdiyini bildirib. Ancaq bu müstəqilliyi qoruyub saxlamaq heç də asan olmayıb. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın tələbilə yenidən siyasi hakimiyyətə qayıtması təhlükəni aradan qaldırdı. Cəbhədə atəşkəs elan olunaraq vahid komandanlıq altında milli ordu quruculuğuna start verildi. Tarix üçün çox qısa bir dövrdə Azərbaycan güclü dövlətə, Silahlı Qüvvələrimiz isə regionun ən qüdrətli ordusuna çevrildi. Artıq Azərbaycan Silahlı Qüvvələri hər an işğal altında olan torpaqlarımızı azad etməyə hazırdır.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli bildirib ki, bu gün ordumuza hərtərəfli dövlət qayğısı var. Ordumuzun gündən-günə inkişaf etməsi, əsgərlərimizin yüksək döyüş hazırlığı hər birimizi sevindirir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda xalqla ordu arasında qırılmaz tellər mövcuddur.

Tədbirin bədii hissəsində Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" İnstrumental Ansamblı solistlərinin çıxışı olub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**





# "Gəl tanış olaq, biz bu diyarın müdafiəçiləriyik!"

Bu gün Azərbaycan Respublikası regionun ən güclü ordusuna sahibdir. Bütün bunlar isə Azərbaycan Silahlı Qüvvələrinin madditexniki bazasının və şəxsi heyətin mənəvi-psixoloji durumunun, döyüş qabiliyyətinin yüksək səviyyədə olmasından xəbər verir. Təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin bu gücə qovuşmasında xalq-ordu birliyi də mühüm rol oynayır. Çünki, xalq orduya, ordu xalqa güvənib inanarsa, o zaman heç bir düşmən bizi məğlub edə bilməz. Elə bütün bunları nəzərə alan Azərbaycan Respublikası Müdafiə Nazirliyi Əlahiddə Ümumqoşun Ordusunun Komandanlığı mütəmadi olaraq şəxsi heyətlə ictimaiyyət nümayəndələrinin görüşünü təşkil edir, mədəni-kütləvi tədbirlərin keçirilməsinə nail olur.

"Gəl tanış olaq, biz bu diyarın müdafiəçiləriyik!" adlı növbəti tədbir Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsi ilə birgə təşkil olunub. Adı çəkilən tədbir Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasının 23-cü ildönümünə həsr olunub. Tədbiri giriş sözü ilə Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov açaraq şəxsi heyətin mənəvi-psixoloji durumunun saflaşdırılması və döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən əməli işlərdən ətraflı bəhs edib.

Daha sonra çıxış edən tanınmış ziyalılar belə tədbirlərin xalq-ordu birliyinin əyani göstəricisi olmaqla bərabər, şəxsi heyətin mənəvi-psixoloji durumuna da öz müsbət təsirini göstərdiyini vurğulayıblar.

Tədbirin bədii hissəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının və Naxçıvan Dövlət Filarmoniyasının yaradıcı kollektivlərinin çıxışları, Kəngərli Rayon Mədəniyyət Evinin "Kəngər" xalq çalğı alətləri ansamblı və "Yallı" rəqs qrupu üzvlərinin ifa və rəqsləri maraqla qarşılanıb. Tədbirin sonunda "N" hərbi hissəsinin xüsusi hazırlıqlı bölməsinin nümunəvi çıxışları daha yaddaqalan olub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Publisistik düşüncələr

# Xarı Bülbülün harayı

## Şuşanın simvolu olan Xarı Bülbül dünyanın heç yerində yoxdu...



Gülə qonmuş bülbülü xatırladan, bağrının (köksünün) altı qırmızı rəngə çalan Xarı Bülbül təbiətin möcüzəsidi. Bu gül niyə belədi? - rəvayətlər də var...

Xarı Bülbülü bir görən bir də görmək istəyir. Onun duruşunu, görkəmini, baxışını görməyə hamı təşnədi...

Hər dəfə bu gözəllik bircəsinin adı çəkiləndə onsuz da yadımdan çıxmayan Şuşa yadıma düşür. Şuşasızlıq elə xarı bülbülsüzlükdü. Şuşadan iraq düşmək elə Xarı Bülbüldən iraq düşməkdi. Şuşalı, Xarı Bülbüllü illəri xatırlayanda yanıb-yaxılırsan, varından yox olursan...

1990-cı ilin aprel ayı idi. "İnşaatçı" qəzetində işləyirdim. Şuşaya ezam edilmişdim. İllərlə həsrətində olduğum Şuşaya. Ermənilərin tamahlandığı Şuşaya. "Qafqazın konservatoriyası" adlandırılan Şuşaya. Xan qızı Natəvanın, Vaqifin, Cabbarın, Seyidin, Xanın, Bülbülün... yurduna. "Dağlarının başı dumanlı Şuşaya"...

Şuşada Süleymanın çayxanasının cazibəsindən çıxa bilməsək də, həvəs, maraq, sevgi məni Cıdır düzünə çəkirdi. Eşitdiyim ecazkarlıqların, mənə könül xoşluğu verəcək gözəlliklərin həsrətindəydim. Baxışlarımı Səxavətin səsiylə vurulduğum Xarı Bülbülün ləçəklərinə "hörəcəkdim" və şükranlıqla göy üzünə boylanacaqdım. Sonra Daşaltıya daş atacaqdım.

Xarı Bülbülü görəcəkdim. Amma dərməyə, kökündən üzməyə əlim gəlməyəcəkdi. Uşaq vaxtı nərgiz-bənövşə dərməyə meyilliydim. Kol-kos əllərimi qanatsa da, tay-tuşlarım əllərimin qan xalına gülsə də, dərərdim. Gözlərimi çəkən nərgizləri, bənövşələri dizin-dizin sürünüb kolların sıxlığından üzərdim. Sonralar çölə-çəmənə gedərdim, kolların dibinə qısılmış nərgizlərə, bənövşələrə baxar, baxardım. Dərməzdim. Dərməyə əlim gəlməzdi...

Xarı Bülbülü gördüm...
Baxdım...
Doymadan baxdım...
Dərmədim. Dərə bilmədim. Əlim gəlmədi...

O günün könül xoşluğundan 24 il keçib. Onda kimin ağlına gələrdi ki, havasını udduğumuz, suyunu içdiyimiz Şuşa bir vaxtlar bizsizlikdən sıxılacaq, İsa bulağı səsini "içinə çəkəcək", Cıdır düzünün "qolları üyüşəcək", Topxana "İki ağacımın kəsilməsinə dözmədiniz. İndi sinəmdə talalar açılıb. Hardasınız? Hardasınız?" deyəcək. Bir zamanlar "Heyratı"yla, "Rast"la, "Arazbarı"yla, "Segah"la, ...açılan səhərlərin rəngi avazıyacaq. "Qarabağın qara baxtı" (Z.Fəxri) ruhumuzun can ortağı olacaq...

Yenə ezamiyyətdəydim. İndi Tovuzda. Düşmənin "üç addımlığında". Uzun illərin ayrılığından sonra əllərimin titrəyişi zaman-zaman istidə sərinlədiyim, soyuqda isindiyim səngərlərin qılıqçısıydı. Zabit Mais Mirzəyevlə söhbətləşirdik. Mais əsgərlərin döyüş hazırlığından, mənəvi-psixoloji durumundan, işğalda qalan torpaqlarımızdan danışırdı. Həm də inamla, sevgiylə danışırdı. İnam əsgərlərin qələbəyə olan inamıydı, sevgi isə Vətənə. Zabitin təqdimatında hərbçiylə torpağın ünsiyyəti könlümü tellləndirdi. Qəflətən soruşdu:

- Heç Xarı Bülbül görmüsünüzmü?

- Görmüşəm, - dedim. - Şuşada, 90-cı ildə.

Mais təbiət vurğunuymuş. Adı ikimizi də duyğulandıran gülün özündən də danışdı, haqqında yaşarı rəvayətdən də.

- Xarı Bülbül başqa torpaqları sevmir, başqa torpaqlarda bitmir. Ancaq mən burda Xarı Bülbülü gördüm. Əllərim titrəsə də, ürəyim gizildəsə də, dərdim.

Mais Xarı Bülbülü Tovuzda, adsız yüksəklikdə dərib. Xarı Bülbül bura necə gəlib? - bilinməz...

Mais kövrələ-kövrələ dərdiyi gülü zabitlərinə də göstərib, əsgərlərinə də. Hamı Xarı Bülbülün solğun ləçəklərinə kövrəkliklə baxıb. Çoxu tanımayıb Xarı Bülbülü. Duyana bu da bir ürək ağrısıdı...

Vətənsevər zabit Xarı Bülbülü vacib bir söhbət üçün mövzu eləyib:

- Şuşada bitir. Şuşa işğal altındadı. Xarı Bülbül əsirlikdədi. Bu gözəllikdə gülə yaşam vermək üçün onu əsirlikdən azad etməliyik. Şuşa azad olunsa, Xarı Bülbülün görkəmi belə olmayacaq. Nəfəsiniz onun rəngini gözəlləşdirəcək. Bu, Şuşanın, Şuşada əsirlikdə olan Xarı Bülbüllərin harayçısıdı. Sizi, bizi, hamımızı haraylayır. "Gəlin, məni əsirlikdən xilas eləyin!" - deyir...

... O söhbət zabitlərin də, əsgərlərin də ruhunu kükrədib. Hamısının yumruqları düyünlənib...

...Tovuzun adsız yüksəkliyindən eşidilən haray hamımızın ürəyini sıxmalıdı, ruhumuzu dara çəkməlidi, düşüncələrimizdə tufan qoparmalıdı. Gözəllik bircəsinin öz doğmalarının əhatəsində öz əvvəlki ömrünü yaşaması üçün ömrümüzü şam-çıraq eləməliyik...

...Xarı Bülbül yollar yorub Tovuza gəlib. Əsgərlərin yanına. Dərdini onlara danışmağa. Onlardan imdad ummağa. Bu gözəllik bircəsi digər bölgələrdə də kiminsə qarşısına çıxacaq, şübhəsiz; Xarı Bülbül Şuşanın gül görkəmində harayıdı...

Xarı Bülbülün harayı Üzeyirin, Xan qızı Natəvanın, Cabbarın, Seyidin, Xanın, Bülbülün harayıdı...

Xarı Bülbülün harayı Vətənin harayıdı...

**Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"**



## Fiziki hazırlıq

# "Hazırlıqlı olanda özümüzdə inam hiss edirik"

İdman mövzusuna müraciət edəndə, həmişə gözlərim önünə mötəbər yarışlar keçirilən yaşıl meydançalar, böyük arenalar gəlir, qulaqlarımda tamaşaçı alqışları əks-səda verir. Budur, hərbi hissənin idman şəhərciyindəyəm. Burada da canlanma var. Şəxsi heyət komandirlərin nəzarəti altında məşq edirlər. Onlar müxtəlif idman qurğularında bacarıq və məharətlərini göstərirlər. Elə ilk addımdan hiss olunur ki, əsgərlərin fiziki hazırlığı yüksəkdir. Şəxsi heyətin məşğələdə belə həvəslə iştirak etməsi məni sevindirdi, ürəyimi qürrələndirdi. Bu da səbəbsiz deyil. Fikirləşirəm ki, fiziki cəhətdən hazırlıqlı olan əsgər döyüşdə düşməni asanlıqla məhv edər, qələbə qazanar. İgidliyi ilə adını qəhrəmanlıq tariximizin şanlı səhifəsinə yazar. Gələcək nəsillərə örnək olar.

Bir müddət əsgərlərin hərəkətlərini izlədikdən sonra onlara yaxınlaşdım. Şəxsi heyətə dərs keçən baş leytenant İqbal Hüseynovla həmsöhbət oldum. O bildirdi ki, əsgərlər həm fiziki hazırlıq məşğələlərində, həm də təlimlərdə fəal iştirak edirlər. Döyüş hazırlıqlarını artırmaq üçün üzərlərinə düşən tapşırıqların öhdəsindən peşəkarlıqla gəlməyə çalışırlar. Əsgərlər təkcə məşğələ zamanı deyil, həm də asudə vaxtlarında idman şəhərciyinə gələrək burada məşq edir, təcrübələrini artırırlar. Əsgərlər elə həvəslə məşq edirlər ki, sanki onları qarşıda hansısa mötəbər bir yarış gözləyir. Əlbəttə, bu belə olmalıdır. Bax buna görə də onlar heç bir çətinlik çəkmədən, döyüş vərdişlərini mükəmməl mənimsəyirlər. Komandir kimi çalışıram ki, tabeliyimdə olan şəxsi heyətin fiziki hazırlığı həmişə yüksək səviyyədə olsun. Lazımi vərdişləri əsgərlərə həvəslə aşılayıram. Hiss edirəm ki, məşğələdən-məşğələyə onların təcrübələri artır. Verilən tapşırıqları daha çevik və cəld yerinə yetirirlər.

Baş leytenant İqbal Hüseynov söhbətinə davam edərək həm fiziki hazırlıq məşğələsində, həm də xidmətin başqa sahələrində fərqlənən əsgərlərdən Orxan Muğayev, Fuad Şahbazov, Ruslan Kamilbəyov, Aqşin Baxışlı, Raqil İsgəndərov və başqalarının adlarını çəkdi. Onların xidmətindən razılıq etdi. Bildirdi ki, bu əsgərlər həmişə əmr və tapşırıqların öhdəsindən bacarıqla gəlir, xidməti vəzifələrini layiqincə yerinə yetirirlər.

- Fiziki hazırlıq məşğələlərinin səmərəli keçirilməsi üçün hərbi hissədə hərtərəfli şərait yaradılıb, - deyə kiçik çavuş Ziya Əhmədli bildirdi. - Hazırlıq yüksək olanda özümüzü daha inamlı hiss edirik. Bu güclə, bu hazırlıqla düşmən qarşımızda heç vaxt duruş gətirə bilməyəcək. Hamımız yaxşı bilirik ki, uğurlara gedən yol fiziki hazırlığın, döyüş hazırlığının yüksək olmasından keçir. Dərslərdə qazanılan təcrübə hər addımda bizi irəli aparır. Təlimlərdə cəld, çevik və dəqiq hərəkətlər edərək inamla uğurlara doğru addımlayırıq. Buna görə də fiziki hazırlıq məşğələlərində də fəal iştirak edərək daha çox təcrübə qazanmağa çalışırıq.

Şəxsi heyətin fiziki hazırlıq məşğələsini diqqətlə izləyirik. Əsgərlər cəld və çevik hərəkətlərlə yorulmaq bilmədən idman qurğularında müxtəlif tapşırıqları yerinə yetirirlər. Bu mənzərələri izlədikcə ürəyim sevinclə, qəlbim qürurla dolur.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu",
foto müəllifindir**

# İdman

## Zabit Səmədov yenə məğlub etdi



Azərbaycanlı K-1 ustası Zabit Səmədov növbəti döyüşünü keçirib. K-1 üzrə "Əfsanələr" döyüşünün qalibi Dubayda qələbə qazanıb.

ANS PRESS-in məlumatına görə, "Mauqli" ləqəbli döyüşçümüz Zabit Səmədov "Global Fighting Championship" (GFC) adlı turnirdə iranlı döyüşçü Cafar Ahmadi ilə üz-üzə gəlib və rəqibinə heç bir şans verməyib.

Qeyd edək ki, Zabit Səmədov türkiyəli məşhur kikboksçu Gökhan Saki ilə döyüşə ciddi hazırlaşmışdı.

## Ölkəmizin cüdoçuları Mayamidə medallar uğrunda yarışacaqlar




Bu gün Mayamidə (ABŞ) gənclər arasında cüdo üzrə dünya çempionatı başlayıb.

AzərTAc xəbər verir ki, mundialda Azərbaycanı Yeniyetmələrin II Olimpiya Oyunlarının finalçısı Natiq Qurbanlı, Sadıx Məhərrəmov (hər ikisi 55 kq), Davud Məmmədov, Mehman Sadıxov (hər ikisi 60 kq), Rəşad Rufullayev, Telman Vəliyev (hər ikisi 66 kq), Hüseyn Rəhimli, Fəqan Quluzadə (hər ikisi 73 kq) və Firudin Dadaşov (90 kq) təmsil edirlər.

Qızların yarışında isə Yeniyetmələrin II Olimpiya Oyunlarının gümüş mükafatçısı Leyla Əliyeva (44 kq) mübarizə aparır.

## Asiya Oyunlarında uğurlu nəticə



Özbəkistan milli komandasını 17-ci Asiya Oyunlarında çalışdırmağa dəvət alan karate üzrə əməkdar məşqçi Şahin Xudaverdiyev Koreya Respublikasındakı mötəbər yarışdan uğurla qayıdıb.

AzərTAc xəbər verir ki, Ş.Xudaverdiyevin rəhbərliyi altında Özbəkistan karateçiləri 1 gümüş və 2 bürünc medala sahib olaraq ümumi komanda hesabında 8-ci yeri tutublar.

## Berti Foqts Azərbaycan millisindən ayrılıb



Berti Foqts Azərbaycan milli komandasının baş məşqçisi vəzifəsindən istefa verib.

İsveçrənin Sürix şəhərində AFFA-nın prezidenti Rövnəq Abdullayevlə görüşdə B.Foqts artıq Azərbaycan millisində gələcəyini görmədiyini deyib. AFFA-dan AzərTAc-a verilən məlumata görə, o, baş məşqçi vəzifəsindən ayrılmasına baxmayaraq, lazım gələcəyi təqdirdə millimizə kömək etməyə hazır olduğunu bildirib, Azərbaycanı ikinci Vətəni saydığını söyləyib.

Azərbaycan milli komandası seçmə mərhələlərdə ən böyük göstəriciyə B.Foqtsun rəhbərliyi ilə nail olaraq 9 xal toplayıb, millimiz FIFA-nın reytinq cədvəlində 73-cü pilləyə qədər yüksəlib.

## Tələbələrin dama üzrə respublika birinciliyi yekunlaşıb



Orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında şahmat, dama, stolüstü tennis, voleybol, basketbol üzrə respublika birinciliyi start götürüb.

AzərTAc xəbər verir ki, Azərbaycan Dövlət Pedaqoji Kollecinin idman zalında keçirilmiş dama yarışlarında nəticələr artıq müəyyənləşib. Neft və Energetika, Bakı Sənaye-Pedaqoji və Bakı Humanitar kolleclərinin qızlarından ibarət, Bakı Sənaye-Pedaqoji, Azərbaycan Texniki, Neft və Energetika kolleclərinin oğlanlardan ibarət damaçıları yarışlarda ilk üç yeri tutublar.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

Amerika Hərbi Hava Qüvvələrinin dayağı ilə Harvardda döyüş sahəsində kəşfiyyat aparmaq üçün milçək-robot hazırlanıb. Amerika mühəndislərinin yeni kəşfi aviatexnika sahəsində yeni mərhələ - uçan mikromaşınlar mərhələsi olacaq. Qanadları 3 santimetr təşkil edən MAV adlı robotlardan ən təhlükəli şəraitdə, mağaralarda, binalarda, kimyəvi maddələrlə zəhərlənmiş sahələrdə, sıx bitkili meşələrdə və s. istifadə olunacaq. Tam şəkildə uçan mikromaşınların idarə edilməsi, quraşdırılması və təchiz edilməsi bəzi problemlər yaradır. Hazırda mütəxəssislər aerodinamik qanadlarının sınağını keçirmək üçün onun oxşarından istifadə edirlər. Sual verilir ki, nə üçün hərbçilər mexaniki həşəratlar yaradır? Praktiki olaraq onlar gözəgörünməz, cəld, həm ucuzdur, kütlə arasında lazımi adamı tanımağa qadirdir və ZRK-ın operatorunun başı üstündən uça bilər. Hətta milçək-robotlar ölümgətirən zəhərli maddələri səpə və çiləyə də bilər.

* * *

Bu yaxınlarda Ctavropolun "Siqnal" radiozavodu T-50 qırıcılarını yeni "Himalay" radioelektron mübarizə sistemi ilə təmin edəcək. Bu haqda müəssisənin direktoru Aleksandr Loqvinov məlumat verib. Məlumata görə, beşinci nəsildən olan T-50 qırıcılarının seriyalarla istehsalı 2016-cı ilə qədər davam edəcək.

* * *

İspaniya hökuməti "Navantiya" şirkəti ilə ölkənin Hərbi Dəniz Qüvvələri üçün Vam layihəli əlavə iki gözətçi gəmisinin quraşdırılması üzrə müqavilə bağlayıb. Verilən məlumata görə, müqavilənin qiyməti 558 milyon dollar təşkil edir. Vam layihəsindən olan bu gəmilərin əsas vəzifəsi digər gəmilərin mühafizəsi, terrorizmə, qeyri-qanuni miqrasiyaya, narkotik maddələrin dövriyyəsinə qarşı mübarizə aparmaq, axtarış-xilasetmə işlərini həyata keçirməkdir. Bu gəmilərin uzunluğu 93.9 metr, eni 14.2 metr, subasımı 2575 ton təşkil edir.

* * *

İordaniya 70 mm-li idarəolunan APKWS raketinin ilk sifarişçisidir. Ölkənin Hərbi Hava Qüvvələri üçün sifariş edilmiş raketlərin sayı və bağlanmış müqavilənin qiyməti haqqında hələ dəqiq məlumat verilməyib. APKWS raketi standart 2.75 duyumlu idarə olunmayan "Hidra-70" M260 aviasiya raketinin bazası əsasında yaradılıb. Lazer sistemli bu raketlə düşmənin zirehli hədəflərini məhv etmək olar. Müqavilənin şərtlərinə görə, raketlər sifariş üzrə 2016-cı ildə İordaniyanın Hərbi Hava Qüvvələrinə təqdim ediləcək.

**Hazırladı:
Svetlana NƏSİBQIZI**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya №361
Sifariş №326
Nüsxə 4570